*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 9, 2024*
*Səh. 72-76*
https://doi.org/10.62837/2024.9.72

**AĞAYEVA FATMA ZAKIR QIZI**
***Bakı Dövlət Universiteti Fililogiya fakültəsinin***
***5714.01 – Müqayisəli-tarixi və müqayisəli-tipoloji dilçilik ixtisası fəlsəfə doktoru proqramı üzrə dissertantı***

# YAZILI NİTQDƏ PSİXOLİNQVİSTİK XÜSUSİYYƏTLƏRIN İNİKASI

Dil doğulduğumuzdan bəri öyrəndiyimizdən, qrammatika və lüğət tərkibindən daha geniş məfhumdur. Dil hər hansı bir cəmiyyətin tarixi keçmişi, sosial münasibətlərini əks etdirən bir vasitədir. Dilin istifadəsi şəxsiyyətlərarası olmaqla bərabər, sosial normalar və iyerarxik münasibətlər vasitəsilə formalaşır. Məlumat mübadiləsi ikitərəfli prosesdir və sadə dil formalarından daha çox asılıdır. Ünsiyyət prosesində iştirak edən bütün tərəflər qarşılıqlı anlaşma məsuliyyətini bölüşürlər. Bu məsuliyyət peşəkar kontekstdə peşəkar cəhətdən yetişmiş müxtəlif şəxslərə aiddir.

Ünsiyyət prosesində qarşı tərəfə təsir etmək üçün ən çox istifadə olunan nitq aktlarından biri nitq etiketləridir. Nitq etiketlərindən düzgün istifadə tərəflər arasındakı münasibətin əsas təməl daşlarından biridir. Bu baxımdan da nitq etiketlərinin psixolinqvistik baxımdan araşdırılmasını zəruri hesab edirik. Nitq etiketləri ayrı-ayrılıqda deyil, istifadə olunduğu konteksdə araşdırılmalıdır [5]. Kontekstdən asılı olaraq onların ifadə etdiyi məna da dəyişə bilər. Məsələn, “Saatınız var?” – sual cümləsi ilə şifahi formada bir şəxsə müraciətlə verilsə, konteksdən asılı olaraq sualı verən şəxs saatın neçə olduğu ilə maraqlanmasını və ya hər hansı təlimdə təlimçinin saatı öyrənmək məqsədini və ya iştirakçılara saatla bağlı göstərmək istədiyi təcrübəni ifadə edə bilər. Bundan əlavə, sualın ikinci şəxsin cəm forması (siz) ilə verilməsi göstərir ki, tərəflər rəsmi münasibətdədirlər. Yazılı nitqdə isə eyni sual tamamilə fərqli konteksti ifadə edə bilər.

Nitq prosesi təkcə bioloji deyil, eyni zamanda psixoloji faktor olub insanı xarakterizə edir. Psixolinqvistika nitq aktlarının yaranması və qavranılması prosesləri ilə linqvistik strukturlar arasında əlaqələri öyrənən elmdir. [6] Bu elm sahəsi insan beyninin danışıq və qavrama proseslərini araşdırmaqla kifayətlənməyib, həm də bu dil qabiliyyətlərinə təsir edəbiləcək müxtəlif patologiyaları da – kiçik yaşlarında dilə yiyələnmə və ya ikidillilik araşdırır. Nitq etiketləri, ünsiyyət zamanı insanların bir-birinə hörmət və ya yaxınlıq göstərməsinin, cəmiyyətin gözləntilərinə uyğun davranmasının ifadə formalarıdır. Psixolinqvistika isə bu davranışların arxasında duran psixoloji motivləri, məsələn, insanların ünsiyyətdə özlərini rahat və ya etibarlı hiss etmə istəklərini araşdırır. Həmçinin nitq etiketləri insanın sosial statusu, yaş fərqləri, münasibətlərin yaxınlığı kimi sosial amillərlə də birbaşa əlaqədardır. Məsələn, “siz” və ya “sən” müraciət formalarının seçimi insanın şəxsiyyətinə və münasibətə təsir göstərə bilər.

Nitq etiketləri insanlarda emosional tənzimləmə vasitəsi kimi çıxış edə bilər. Məsələn, təsəlli verən, təşəkkür edən və ya üzr istəyən nitq etiketləri, insanın həm öz emosiyalarını, həm də qarşı tərəfin emosiyalarını idarə etməsinə kömək edir. Psixolinqvistika, bu etiketlərin necə və niyə istifadə olunduğunu, insanların qarşılıqlı əlaqələr zamanı bu etiketi emosional vəziyyətə uyğun şəkildə necə seçdiklərini analiz edir. Psixolinqvistik təhlil, fərqli mədəniyyətlərdə nitq etiketlərinin qəbul olunma və istifadəsinə də diqqət yetirir. Məsələn, bəzi mədəniyyətlərdə təvazökarlıq əsas nitq etiketi kimi qəbul olunur və "üzr istəyirəm" kimi ifadələr çox istifadə edilir. Digər tərəfdən, fərqli mədəniyyətlərdə nitq etiketlərinin daha açıq və sərbəst istifadə edilməsi insanlar arasında qarşılıqlı anlaşılmazlıqlara səbəb ola bilər. Psixolinqvistika bu fərqləri analiz edərək, insanların qarşı tərəfin nitq etiketi istifadəsini necə qəbul etdiyini və bu prosesdə hansı emosional reaksiya verdiyini öyrənir. Psixolinqvistika həmçinin uşaqların erkən yaşlardan etibarən nitq etiketlərini necə mənimsədiyini öyrənir. Uşaqlar ailə və cəmiyyət mühitində nitq etiketlərini müşahidə edərək və təqlid edərək öyrənirlər. Psixolinqvistika, uşaqların nitq etiketlərinin sosial qaydalarını necə dərk etdiklərini və yaşla birlikdə necə dəyişdiyini araşdırır. Bu, eyni zamanda uşağın dil və ünsiyyət bacarıqlarının formalaşmasında mühüm rol oynayır.

Psixolinqvistika məlumatın müxtəlif səviyyələrdə – fonoloji, fonetik, leksik, sintaktik, morfoloji, semantik, praqmatik – emalı zamanı ortaya çıxan mental prosesləri xarakterizə məsələlərini araşdırır. Bəzən dil baxımından qrammatik, leksik, fonetik və s. səviyyələrdə düzgün olan bir ifadə həmin kontekstdə və ya həmin insan tərəfindən qəbul edilməyə və ya fərqli qiymətləndirilə bilər. Analitik yanaşsaq, "Dostum və mən" ifadəsi ilə "Mən və dostum" ifadəsi psixolinqvistik baxımdan eyni səviyyədə qiymətləndirilə bilməz. Ünsiyyət prosesində çoxsaylı və olduqca sürətli, çox zaman paralel və qeyri-ixtiyari reallaşan koqnitiv proseslər iştirak edir [7]. Bu baxımdan da psixolinqvistika dilin fundamental təbiətini daha yaxşı başa düşmək üçün psixologiya və linqvistikanı özündə birləşdirən kompleks elm sahəsidir. Bu sahələrdən başqa dilin necə inkişaf etdiyini araşdırmaq üçün psixolinqvistika nevrologiyaya, kommunikasiya ilə bağlı olan digər elm sahələrinə də toxunur [8].

Şifahi nitqdə dialoq vasitəsilə aydınlaşdırılması mümkün olan bir çox məsələlər yazılı nitqdə mümkün olmur. Bu səbəbdən də yazıda qarşı tərəfin bilik və bacarıqlarını, eyni zamanda dünyagörüşünü nəzərə almaq lazımdır. Bu zaman qarşı tərəfdə sual yarada biləcək məqamlar nəzərə alınmalı, bundan əlavə qarşı tərəfin psixoloji baxımdan özünü rahat hiss etməsi üçün nitq etiket qaydalarına riayət edilməlidir. İlkin oxu zamanı qarşı tərəfdə sual verməyə zəruriyyət yarada biləcək yazı forması natamam hesab oluna bilər. Bəzi hallarda isə müxtəlif faktorlardan asılı olaraq yazıda tələb olunan informasiya etiket qaydalarına zidd və ya uyğun ola bilər. Məs: İşəgötürmə ilə bağlı yazışmada məktubun sonunda əvvəlcədən məlumat və ya cavab verməyi tələb etmək. Əgər bu tələb işəgötürən tərəfdən olunursa, heç bir etiket qaydasının pozulmasından söhbət getməyəcək, çünki adətən bu cür proseslərdə qəbul

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* ISSN 2224-9257
*Filologiya məsələləri № 9, 2024*
*Səh. 72-76*
olunmuş bir qayda var: prosedur qaydaları belə irəliləyir və ya müəyyən bir sistemin doğru-düzgün irəliləməsi üçün bu vacibdir. Lakin namizədin belə bir tələblə çıxış etməsi etiket baxımından düzgün qiymətləndirilməyə və ya psixolinqvistik baxımdan qarşı tərəfdə mənfi rəy yarada bilər. Bu nəticələri nəzərə alan namizəd tərəfindən səbəbin izah olunması daha məqsədəuyğun hesab oluna bilər. Digər bir nümunə kimi elmi məqalələri və ya konfrans materiallarını göstərmək olar. Qoyulan tələbləri ödəmədən materialı xam formada təqdim edən müəllif haqqında qarşı tərəfdə məsuliyyətsiz olması ilə bağlı təsəvvür formalaşdıra bilər. Bu baxımdan yazılı nitqdə istifadə olunan nitq etiketləri psixolinqvistik baxımdan ən az şifahi nitqdə olduğu qədər önəmlidir.

Nitq davranışı sferaları sosial-məişət, sosial-mədəni, elmi-tədris, ictimai-siyasi, rəsmi işgüzar sahələrə ayrılır və nitq etiketlərinin məzmunu işlənmə sferalarından asılı olaraq da dəyişir. Belə ki, üzbəüz ünsiyyət prosesində həmsöhbətə təsir etmək və ya fikir yaratmaq üçün müxtəlif üsullardan (intonasiya, jestlər, mimika) paralel istifadə etmək mümkündürsə, yazılı nitqdə, xüsusilə rəsmi yazılı nitqdə bu seçimlər məhdudlaşır. Bu baxımdan da yazışmalar zamanı seçilən sözlər məqsədə çatmaqda bizə köməkçi olacaq önəmli vasitələrdəndir. Burada sözügedən yazışmanın formasından, üslubundan, eyni zamanda istifadə olunduğu sferadan da bir çox faktorlar asılıdır. Məsələn: Dövlət qurumlarına ərizə ilə müraciət edərkən istifadə olunan üslub bütün əlavə dil faktorlarından uzaq, sırf qarşı tərəfə fikri çatdırmaq məsədi güdür. Və hətta bir çox hallarda bu müraciətin nəticəsi əvvəlcədən bilinir və onun yazılması formal xarakter daşıyır. Bu tip yazışmalarda nitq etiketlərinin məzmununa görə yalnız əsas formasından istifadə olunur. Müraciət ünvanlanan şəxsə “siz” deyə müraciət olunur və əsas fikir ifadə olunur.

Yazıda nə salamlaşma, nə də sağollaşma ifadələri öz əksini tapır. Eyni formada həmin müraciətə cavab verilərkən də maksimum lokonik şəkildə fikrin düzgün ifadəsinə və rəsmi üsluba ciddi cəhdlə əməl edilir. Lakin ərizələrdən fərqli olaraq məqalələr, dissertasiya işləri kimi digər tip yazılı nitq nümunələrində müraciət etiketləri istifadə olunmasa da qarşı tərəfin qavrama xüsusiyyətləri nəzərə alınır, əsasən elmi-kütləvi üslubdan istifadə olunur müəllifin özünü və ya oxucunu işarə edəcək əvəzliklərdən (mən, sən və s.) istifadə olunmamasına xüsusi diqqəy yetirilir. “Yazılarda məzmunun anlaşılması və kommunikasiyanın uğurlu alınması yalnız yazanın deyil, eyni zamanda oxuyanın da məlumatı qavrama və emaletmə qabiliyyətindən asılıdır.” [3, s.122].

Psixolinqvistikanın nitq etiketləri ilə əlaqəsi, dilin yalnız qrammatik və ya leksik səviyyədə deyil, həm də psixoloji və sosial səviyyədə təhlilini təmin edir. Nitq etiketləri insanların ünsiyyət zamanı fərqli psixoloji vəziyyətləri ifadə etmələri, emosiyalarını idarə etmələri və qarşı tərəflə harmonik ünsiyyət qurmaq məqsədilə formalaşmış davranışlar toplusudur. Bu baxımdan, psixolinqvistika nitq etiketlərinin mənimsənilməsi, istifadəsi və insanların bu etiketlərə qarşı emosional reaksiyalarını analiz edərək cəmiyyətlərarası ünsiyyətdə anlaşmanı təmin edir. Yuxarıda

deyilənlərə əlavə olaraq deyə bilərik ki, müxtəlif faktorlar özlüyündə psixolinqvistik qiymətləndirməyə əsas verə bilər. Dövrümüzdə dünyada, eləcə də Azərbaycanda geniş vüsət almış qloballaşma prosesini nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, qarşılıqlı anlaşmanı şifahi nitqdə olduğu kimi yazılı nitqdə də nitq etiketlərindən düzgün istifadənin nəticəsi hesab etmək olar.

**Ağayeva Fatma Zakir qızı**

**Yazılı nitqdə psixolinqvistik xüsusiyyətlərin inikası**

***Açar sözlər:*** *nitq etiketləri, yazılı nitq, psixolinqvistika, Azərbaycan və fransız dilləri.*

**Xülasə**

Məqalədə dilin psixoloji aspekti araşdırılmış, bu məsələnin xüsusilə yazılı nitqdə təzahürü məsələlərinə diqqət yetirilmişdir. Eyni fikirlərin mövcud kontekstdən asılı olaraq müxtəlif formalarda anlaşılması nümunələrlə göstərilmişdir. Psixologiyanın nitqdə təzahürü dilin qrammatik və ya leksik səviyyələri ilə bərabər, həm də psixoloji və sosial səviyyədə təhlilini tələb edir. Məqalədə həmçinin ünsiyyət zamanı fərqli psixoloji vəziyyətləri ifadə etmək, emosiyalarını idarə etmək və qarşı tərəflə harmonik ünsiyyət qurmaq məqsədilə formalaşmış davranışlar toplusu olan nitq etiketlərinin fərdlərin sosial, psixoloji durumu ilə bilavasitə bağlılığı izah edilir.

**Agayeva Fatma Zakir gizi**

**THE REFLECTION OF PSYCHOLINGUISTIC FEATURES IN WRITTEN SPEECH**

***Key words:*** *speech etiquette, written speech, psycholinguistics, Azerbaijani and French languages.*

**ABSTRACT**

The article examines the psychological aspect of language, focusing particularly on how this aspect is manifested in written speech. Examples illustrate how the same ideas can be understood in various forms depending on the context. The reflection of psychology in speech requires analysis not only on grammatical or lexical levels but also on psychological and social levels. The article also explains the direct connection between speech etiquettes – a set of behaviors formed to express different psychological states, manage emotions, and establish harmonious communication with others – and individuals' social and psychological conditions.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 9, 2024*
*Səh. 72-76*

**Агаева Фатма Закировна**

# ОТРАЖЕНИЕ ПСИХОЛИНГВИСТИЧЕСКИХ ОСОБЕННОСТЕЙ В ПИСЬМЕННОЙ РЕЧИ

***Ключевые слова:*** *речевой этикет, письменная речь, психолингвистика, азербайджанский и французский языки.*

## РЕЗЮМЕ

В статье рассматривается психологический аспект языка, с особым вниманием к проявлению этого аспекта в письменной речи. На примерах показано, как одни и те же идеи могут быть поняты по-разному в зависимости от контекста. Проявление психологии в речи требует анализа не только на грамматическом или лексическом уровнях, но также на психологическом и социальном уровнях. В статье также объясняется прямая связь между речевыми этикетами—набором поведенческих форм, сформированных для выражения различных психологических состояний, управления эмоциями и установления гармоничного общения с другими—и социальным и психологическим состоянием личности.

## ƏDƏBİYYAT

1. Cəfərov, V. (2009). Diplomatik etiket və nitq mədəniyyəti, Bakı: Az.TU mətbəəsi.
2. Galisson, R. (1983). Des mots pour communiquer, Paris: CLE international.
3. Moirand, S. (1990). Enseigner à communiquer en langue étrangère, Paris: HACHETTE F.L.E.,
4. Şiriyev, F. (2014). Azərbaycan dilinin nitq mədəniyyəti və Ritorika. Bakı: Nurlan.
5. Vəliyeva V, Əliyeva, T., Mədəni nitq etiketləri // Azərbaycan dili və ədəbiyyatı tədrisi:elmi-metodik jurnal, 2018, № 2 (aprel-iyun) s.45-51.
6. https://www.cnrtl.fr/definition/psycholinguistique
7. https://fr.wikipedia.org/wiki/Psycholinguistique
8. https://lecafedufle.fr/psycholinguistique

**Redaksiyaya daxil olma tarixi: 19.09.2024**
**Çapa qəbul olunma tarixi: 30.09.2024**
**Elmi rəhbər: f.f.d., dos. C. X. Muradov tərəfindən çapa tövsiyə olunmuşdur**